# SOSİAL PROBLEM KİMİ TƏHSİLDƏN YAYINMA HALLARI

Səma MƏMMƏDOVA*

**Xülasə:** Məktəb yaşlı uşaqların təhsildən uzaqlaşması XXI əsrin dünya ölkələrinin əsas sosial problemləri sırasına daxil olundu. Dünya ölkələrində 1990-cı ildə 100 milyondan çox uşaq təhsilsiz idisə, bu göstərici 2000-ci ildə 113 milyonu keçmişdir. Müsəlman və həmçinin, türk dövlətlərində, xüsusəndə bu ölkələrin kənd yerlərində məktəbyaşlı uşaqların təhsildən yayınma halları sosial problem kimi daha qabarıq formada qalmaqdadır. Azərbaycan Respublikasının Konstitusiyasının təhsil hüququnda hər kəsin təhsil almaq hüququnun olması və ümumi orta təhsilin icbari olması 42-ci maddədə öz əksini tapmışdır. Təhsildən yayınma halları, əsasən də, qız uşaqlarına qarşı edilən bu cinayət dövlətin siyasi-iqtisadi, sosial, mədəni inkişafına zərər vurur. Azərbaycanda 2015-ci il təhsil statistikasına əsasən məktəbəqədər təhsillə əhatə səviyyəsi şəhərlərdə 23,4%, kəndlərdə 8,7%, ölkə üzrə isə 16,5% təşkil edir.

***Açar Sözlər:*** *Uşaqlar, Sosial Problemlər, Təhsildən Yayınma*

**Avoidance of Education Like a Social Problem**

**Abstract:** Disengagement of school-aged children from education has become one of the main social problems of the countries of the XXI century. If in 1990 more than 100 million children were without education in the countries of the world, this indicator exceeded 113 million in 2000. In Muslim and Turkish countries, especially in the rural areas of these countries, school-age children's truancy remains a more prominent social problem. Article 42 of the Constitution of the Republic of Azerbaijan states that everyone has the right to education and that general secondary education is compulsory. Avoidance of education, this crime, mainly against girls, harms the political-economic, social and cultural development of the state. According to the education statistics of 2015 in Azerbaijan, the coverage level of pre-school education is 23.4% in cities, 8.7% in villages, and 16.5% in the country.

***Key Words:*** *Children, Social Problems, Truancy*

## Giriş

Sosial problemlər insanların müxtəlif səbəblərdən sosial bərabərsizliklərə məruz qaldıqları vəziyyəti ifadə edir. Sosial problemlər irq, din, cins və ya gəlir səviyyəsi kimi dəyişənlərə görə bir çox insana müxtəlif şəkildə təsir edə bilər. Uşaqlar sosial siyasət və sosial xidmət işində prioritet olan imkansız qruplardır. Uşaqların özlərini qorumaq kimi gücü və səriştəsi olmadığı üçün böyüklərdən daha çox sosial problemlərdən təsirlənirlər. Müharibə, yoxsulluq, köç kimi bütün cəmiyyətə mənfi təsir göstərən hallar uşaqların da böyüməsi və inkişafına maneəsiz ötüşmür. Onların psixi və fiziki sağlamlıqlarına zərər vurur. Bu kontekstdə uşaqlar bütün cəmiyyətlərdə xüsusi əhəmiyyət kəsb edir [10].

Məktəb yaşlı uşaqların təhsildən uzaqlaşması XXI əsrin dünya ölkələrinin əsas sosial problemləri sırasına daxil olundu. Keçən əsrin sonunda dünyada milyonlarla məktəbyaşlı uşaq təhsilsiz və savadsız idi. Təhsilin əsas məqsədlərindən biri şagirdləri vətəndaş olaraq yetişdirməkdir. Dünya ölkələrində 1990-cı ildə 100 milyondan çox uşaq təhsilsiz idisə, bu göstərici 2000-ci ildə 113 milyonu keçmişdir

Uşaqların təhsildən uzaqlaşdırılması dünyanın bütün ölkələrində əsas sosial problemdən biridir. Gənc nəslin təhsilli olması indiki dövr üçün böyük aktuallıq kəsb edir. 21-ci əsrdə yaşamağımıza baxmayaraq, dünya əhalisinin əksər hissəsi müxtəlif təhsil problemləri ilə üzləşir. Bu problemlərə savadsızlığı, yəni oxumaq-yazmaq qabiliyyətinin olmaması, məktəb yaşlı uşaqların vaxtının çox hissəsini küçədə işləməsi, 20-ci əsr müharibələrindən (1 və 2-ci dünya müharibələri) dolayı, həmçinin günümüzdə müxtəlif ölkələrdə səngimək bilməyən müharibələr milyonlarla uşağın qaçqın düşərək təhsildən yayınması, məktəbəqədər təhsilə cəlb olunmanın aşağı səviyyədə olması, müəyyən ali təhsil səviyyəsinə çata bilməmək, müəllim çatışmazlığı, kənd məktəblərinin bağlanması, yaşayış yerinə yaxın məktəblərin olmaması və s. misal göstərmək olar [9].

XX əsrin sonunda, yəni 1990-cı ilin martında Beynəlxalq ictimaiyyət Jontien şəhərində (Tayland) hər bir insanın təhsil hüququnun təmin edilməməsinə yönələn "Hamı üçün təhsil" Ümumdünya Konfransında "Hamı üçün təhsil haqqında" Ümumdünya

* Bakı Avrasiya Universiteti, Humanitar fənlər və regionşünaslıq kafedrası, amilqizisema@gmail.com

Bəyannaməsi qəbul edildi. Sənəddə qeyd olunur ki, dünyada, o illərdə 100 milyondan çox uşağın təhsil almaq imkansızlığı, 960 milyondan çox böyüklərin savadsızlığıdır və qarşıya qoyulan vəzifə hər bir insanın əsas təhsil ehtiyaclarının ödənilməsinə şərait yaratmaqdır [29].

Dünya ictimaiyyəti tərəfindən Hamı üçün Təhsil üzrə Ümumdünya Bəyannaməsinin həyata keçirilməsi üzrə on illik işin nəticələri 2000-ci ilin aprelində Dakarda (Seneqal) keçirilən Ümumdünya Təhsil Forumunda bildirildi. Dünyada əldə olunan irəliləyişlərə baxmayaraq, hələ də 113 milyondan çox uşaq ibtidai təhsilsiz, 880 milyon yaşlı isə savadsızdır [22].

Müsəlman və həmçinin, türk dövlətlərində, xüsusəndə bu ölkələrin kənd yerlərində məktəbyaşlı uşaqların təhsildən yayınma halları sosial problem kimi daha qabarıq formada qalmaqdadır. Kənd yerlərində təhsildən yayınma halları, əsasən də, qız uşaqlarına qarşı edilən bu cinayət dövlətin siyasi-iqtisadi, sosial, mədəni inkişafına zərər vurur.

## 1. Təhsildən Yayınmaya Təsir Edən Müxtəlif Sosial Problemlər

Bütün dünyada cəmiyyətlərin təhsil və mədəni səviyyəsi onların uşaqlarına bərabər təhsil verib-verməmələri ilə ölçülür. Təhsil cəmiyyətlərin gələcəyi və inkişafı üçün ən vacib elementlərdən biridir. Gənc əhalisi çox olan cəmiyyətlərdə təhsil problemlərdən biri əsas təhsil səviyyəsində qeydiyyat, davamiyyət və bitirmə sahəsində yaşanır. Əsas təhsil qanunla qorunsa da, əhalinin və xüsusən də qadınların təhsili arzu olunan səviyyəyə çata bilməmişdir [28]. Qızlara məlumatsız, xarici dünya ilə əlaqəsi kəsilmiş və təcrübəsiz canlılar kimi baxılır. Bu səbəbdən onların zəif xasiyyətli olduqları və asanlıqla aldana bildikləri qəbul edilir. Məktəb həyatı və ya xarici dünya "qızlar üçün" təhlükələrlə doludur. Əslində isə zəif olmayan qadınlara öz varlıqlarını qorumaq üçün məktəbə getmələri qadağan edilir. Qadınlara yaxşılıq edirlərmiş kimi onların inkişafı və dəyişməsini əngəlləyirlər [11].

UNICEF-in (2003) araşdırmasına görə, qız uşaqlarının təhsildən uzaqlaşmasında bir çox amillər rol oynayır. Məs., ənənə və dini inanclar, stereotipləşdirilmiş gender rolları, qadınların aşağı statusu, erkən nikahlar və s. Yayınma hallarına təkan verən amillərə siniflərdə baza materialının və təchizatın çatışmazlığı, məktəblərdəki mühitin pisləşməsi, çox aşağı maaşlar, müəllimlərin təhsil sistemini tərk etməsi və mövcud müəllim heyətinin də mənəvi cəhətdən pozulması, eləcə də əksər ölkələrdə, müsəlman aləmində dini baxış, ailənin həyat düşüncəsi, ailələrin təhsilə maraq göstərməməsi, yaxın ətraflarında savadlı insanların olmaması və maddi vəziyyətinin aşağı olmasını misal göstərmək olar [7].

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, valideynlər qız uşaqlarını məktəbə göndərməmək üçün müxtəlif bəhabələr göstərmişlər:

- tərbiyə və ədəb çərçivəsində məktəbə getməsini təmin etmək mümkün deyil;
- qınama və rüsvayçılıqla qarşılaşırlar;
- qızların oxuyub yazmağı bilməsi kifayətdir;
- qız uşaqlarına qarşı inamsızlıq;
- qızlar yeniyetməlik yaşına çatdıqda, oğlanlarla eyni mühiti paylaşmaq mənfi cəhətlərə səbəb ola bilər;
- ailənin qız uşağının oxumq istəyini bəyənməməsi və s. [11].

Səbəblərdən biri olan erkən nikahın qarşısının alınması istiqamətində dünyanın bütün ölkələrində bir çox işlər görülsə də, azyaşlı qız uşaqlarının zorla evləndirildiyi hallar hələ də mövcuddur. Həm beynəlxalq sənədlərdə, həm də ölkələrin milli qanunvericiliklərində qoyulan qadağalar problemin həlli üçün kifayət eləmir. Əksər hallarda erkən nikah, düşüncə tərzinin, adət-ənənələrin mənfi nəticəsi kimi ortaya çıxır. Bu isə qızların təhsil almasında, iqtisadi, siyasi həyatda iştirak etməsində problemlər yaradır [24].

Dünya Bankının apardığı araşdırmaya görə, inkişaf etməkdə olan ölkələrdə əhalinin çəkisi ilə ibtidai məktəbi bitirmə nisbətləri 1990-cı illərdə 73 faizdən 81 faizə yüksəlmişdir [4]. Yenə də ümumi rəqəm regionlar və cins arasında böyük fərqləri gizlədir. Eyni

araşdırmaya görə, 1990-cı illərdə əhalinin çəkisi ilə ibtidai məktəbi bitirmə nisbətlərindəki artım tempi 2015-ci ilə qədər davam edərsə, hər beş uşaqdan biri hələ də məktəbdən kənarda qalacaq.

Valideynlər, xüsusən də kənd yerlərində yaşayanlar uşaqlara təhsil verərkən oğlanlara daha çox üstünlük verirlər [23]. Qızlar ümumiyyətlə 6, 7 və 8-ci siniflərdə məktəbi tərk edirlər. Oğlanlar 8-ci sinfi bitirib orta məktəbi davam etdirirlər. Orta məktəbə getməmək oğlan şagirdin öz istəyi ilə bağlıdır. Qızların məktəbi tərk etməsi onların iradəsi əleyhinə baş verir [11].

Əhalinin sürətli artımı nəticəsində yaranan gərgin ev işlərində anaya köməklik etmək və bacı-qardaşlarına qulluq etməkdə ikinci ana rolunu almaq qızların təhsilə qoşulmasına mane olur. Ailələrdə uşaqların sayı artdıqca məktəbə davamiyyət azalır.

Nyu-York, 7 oktyabr 2016-cı il – UNICEF-in 11 oktyabr Beynəlxalq Qız Uşaqları Günü ərəfəsində dərc etdiyi hesabata görə, 5 ilə 14 yaş arasında olan qızlar ödənişsiz gündəlik ev işləri, su gətirmək və yanacaq toplamaq üçün öz yaşıdları olan oğlanlardan 40 faiz çox işləyirlər. Başqa sözlə 160 milyon saat vaxt bu işlərə xərclənir. Mövcud məlumatlara görə, ev işlərinin qeyri-mütənasib yükü erkən yaşda qızların üzərinə düşür. 5-9 yaş arası qızlar öz yaşıdları olan oğlanlara nisbətən ev işlərinə 30 faiz çox vaxt və ya gündə 40 milyon saat sərf edirlər. Qızlar yaşlandıqca onların iş yükü də artır. Məsələn, 10-14 yaşlı qızlar oğlanlara nisbətən ev işlərinə 50 faiz, yəni gündə 120 milyon saat sərf edirlər [20].

Valideynlər üçün ən utanc verici şey böyüyən qızlarını məktəbə göndərməkdir. Onların fikrincə əgər qız həddi-büluğa çatmışdırsa, gərək evdə qalsın. Bu fikrin iki səbəbi var: erkən nikah adəti və əxlaqi dəyərlər.

DİE tərəfindən aparılan "Uşaq Əməyi" adlı araşdırmada uşaqların məktəbə gedə bilməməsinin səbəbləri arasında hər iki cins (qızlar üçün 25%, oğlanlar üçün 29%) üçün təhsilə marağın olmaması birinci yerdədir. Oğlanlar (12,2%) və qızlar (17%) üçün ikinci səbəb kimi orta məktəb xərclərinin çox olması göstərilir. Üçüncü səbəb qızlar üçün ailənin buna icazə verməməsi (14%), oğlanlar üçün isə ailəyə ekonomik cəhətdən kömək etməyə məcbur olmasıdır (11,9%) [5].

Peşə və texniki təhsil almada kişilərin üstünlük təşkil etdiyi halda, qızlar dini təhsilə yönəldilir. Təhsildə patriarxal ideologiya davam edir. Belə ictimai quruluşlarda nəslin davamı kişilər vasitəsilə həyata keçirilir və kişi övladının dəyərli olması təbiidir. Ailənin oğul övladının olması və çoxlu sayda olması belə ailələr üçün çox vacibdir [26].

NEW YORK–CENEVA, 1 dekabr 2020-ci il – UNICEF və Beynəlxalq Telekommunikasiya İttifaqının hazırladığı yeni hesabata əsasən, dünyada məktəb yaşlı uşaqların üçdə ikisi, yəni 3-17 yaş arası 3 milyard uşağın evində internet bağlantısı yoxdur. Oxşar vəziyyətin 15-24 yaş arası gənclərdə də yaşandığı vurğulanır və gənclərin 63 faizinin evində internetin olmadığı bildirilir. Covid-19 səbəbiylə məktəblər bağlandığı üçün milyonlarla uşaq və gənc təhsildən geri qaldı. Daha aydın desək; “İnternetə çıxışın olmaması yeni nəsillərin gələcəyinə baha başa gəldi”. Aşağı gəlirli ölkələrdə 20 məktəb yaşlı uşaqdan birinin evdə internet bağlantısı olduğu halda, yüksək gəlirli ölkələrdə təxminən hər 10 nəfərdən 9-nun evdə internet var. Aşağı gəlirli ölkələrdə və kənd yerlərində yaşayan təxminən 1,3 milyard məktəb yaşlı uşaq evdə internetə daxil ola bilmədiklərinə görə təhsildən geri qalma riski ilə üzləşirlər [21].

## 1. Təhsildən Yayınma Azərbaycan Timsalında

Azərbaycan Respublikasının Konstitusiyasının təhsil hüququnda hər kəsin təhsil almaq hüququnun olması və ümumi orta təhsilin icbari olması 42-ci maddədə öz əksini tapmışdır. Təhsildən yayınma halları, əsasən də, qız uşaqlarına qarşı edilən bu cinayət dövlətin siyasi-iqtisadi, sosial, mədəni inkişafına zərər vurur. Azərbaycanda 2015-ci il təhsil statistikasına

əsasən məktəbəqədər təhsillə əhatə səviyyəsi şəhərlərdə 23,4%, kəndlərdə 8,7%, ölkə üzrə isə 16,5% təşkil edir [9].

Azərbaycanda 1989-cu ildə keçirilən siyahıyaalma göstərdi ki, əhalinin ümumi savadlılıq səviyyəsi 99,6%-dir. 15 yaşına çatmış uşaqların təxminən hamısı cinsindən, yerləşdiyi ərazidən və ya gəlir səviyyəsindən asılı olmayaraq təhsil müəssisələrinə cəlb edilmişdi [1]. 1990-cı illərin əvvəllərindən bəri nailiyyətlərin səviyyəsinin aşağı düşməsi, məktəbə cəlb olunan uşaqların rəsmi sayı ilə məktəblərə gələnlərin sayı arasındakı böyük fərqlər, yüksək dərəcədə müəllim axını və nəhayət, məktəb infrastrukturunun dağılması faktlarına baxmayaraq, Azəbaycan özünün əvvəlki təhsil göstəricilərini saxlamağa çalışır. Hələ 1993-cü ildə ölkəmizdə ağır müharibə şəraitinin olmasına baxmayaraq, Heydər Əliyev uşaqların təhsildən kənarda qalmasına imkan verilməmiş və bu problemin həllində əsasən təhsil müəssisələrinin normal vəziyyətə gətirilməsinin planlı islahatlarının əsası qoymuşdu [2]. Bu dövrdə ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artmışdı. Əgər 1993-94-cü dərs ilində respubilkanın 4364 ümumitəhsil məktəbində 1 mln. 549 min, 2002-2003-cü dərs ilində 4561 ümumtəhsil məktəbində 1 mln. 600 min nəfərdən çox yeniyetmə təhsilini davam etdirirdi.

UNICEF-in 2000-ci il ÇGKS-ya (Çoxgöstəricili Klaster Sorğusu) görə uşaqların məktəbə getmələri ilə yoxsulluq həddi arasında bir bağlılıq var: varlı ailələrdən 21,2%, orta səviyyəli ailələrdən 12% və yoxsul ailələrdən yalnız 5% uşaq təhsil proqramına cəlb edilmişdi. Məktəbə getməyənlərin əksəriyyəti də olmasa, çoxu yoxsul şəhər uşaqları, kəndli və təcrid edilmiş uşaqlar, məcburi köçkün-qaçqın uşaqları, küçə uşaqları, işləyən uşaqlar – təhsil haqqının maliyyə çətinlikləri üzündən məktəbdən kənarda qalıblar [1].

UNICEF-in 2000-ci il ÇGKS aşkara çıxarmışdı ki, sorğuda iştirak edən 5-14 yaşlı uşaqların 13%-i "işləyirlər". Sorğu bölgələr üzrə fərqli halların olduğunu göstərdi. Naxçıvanda hər beş uşaqdan biri işlədiyi halda, Bakıda 25 uşaqdan biri işləyirdi. Yoxsul olmayan ailələrin uşaqlarının yalnız 5%-nin, yoxsul ailələrdə isə uşaqların 22%-nin işlədiyi müəyyən edilmişdi [27, 1].

2001-ci il qeyri-hökumət təşkilatlarının SİGMA sorğusu aşkar etmişdi ki, sorğu keçirilən ərazidə yaşayan məktəbyaşlı uşaqların yalnız 62,4%-i məktəbə gedir və 21,8% ümumiyyətlə məktəbə heç getmir [3]. Bundan əlavə, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi xəbər verirdi ki, 16 yaşdan yuxarı gənclər arasında natamam orta təhsil alanların sayı (37,8%) ümumdövlət səviyyəsindən iki dəfə çoxdur.

DSK-nın 2002-ci ildə keçirdiyi sorğu həm valideynlərin, həm də müəllimlərin təhsilin nəticələrindən narazı olduqlarını aşkara çıxartdı. Sorğuda iştirak edən müəllimlərin yarısından çoxu (55%) bildirib ki, tədris materiallarının yararsız olması onlara öz müəllimlik vəzifələrini effektiv surətdə həyata keçirmələrinə mane olur, 35,2% müəllim isə qeyd edib ki, yeni dərsliklərin olmaması tədris işində ən böyük manedir. Eyni vaxtda, 50,4% valideyn və 46,3% tələbə tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına ehtiyac olduğunu bildiriblər [6].

2003-cü ildə rayonlarda (Ağdam, Tərtər, Goranboy, Mingəçevir, Bərdə, Yevlax) yerləşən məktəblərin qiymətləndirməsi zaman məlum olmuşdu ki, məktəblərin təxminən 37%-i köçkünlər tərəfindən tutulub və yoxlanılan 21 məktəbdən yalnız ikisində tədris şəraiti qənaətbəxşdir. Lazımi qədər dərs otaqlarının çatışmamasına görə dərslərin ləğv edilməsi; dərs müddətinin 45 dəqiqədən 35 dəqiqəyə qədər azalması; yaxşı otaqlar köçkün-qaçqınlar tərəfindən tutulduğuna görə, dərslərin münasib olmayan otaqlarda keçilməsi; məktəbdə yaşayan gənc kişilərin məktəbli qızları narahat eləmələri və bunun da nəticəsində yuxarı sinif şagirdi olan qızların məktəbə gəlmələrinin azalması halları göz önündə idi [1].

Dövlət Statistika Komitəsinin 2013-cü il üçün məlumatına əsasən, Azərbaycanda şəhər yerlərində məktəbdən yayınanlar 2,5%, kənd yerlərində isə 2,2% təşkil edir. Ümumtəhsil məktəblərində oxuyan və müxtəlif səbəblərdən təhsildən yayınan uşaqların 57,5% oğlanlar, 42,5%i qızlardır. Məktəbdən yayınma halları əsasən yuxarı yaşlı uşaqlar arasında qeydə

alınıb. Onların 55,3% 15-17 yaşda, 24,6% 12-14 yaşda olanlardır. Uşaqların 43,6% xəstəlik, 13,9% valideynlərinin icazə verməməsi, 7,9% pul qazanıb gələcəklərini qurmaq istədikləri, 6,4% valideynlərinin təhsil üçün lazımi ləvazimatların almasına imkanları olmadığı və 28,2 % isə digər səbəblərindən məktəbdən yayınıb. Millət vəkili Gültəkin Hacıbəylinin sözlərinə görə, "Qızlarımızın təhsildən yayındırılaraq erkən yaşlarında nikaha məcbur edilməsi son illər Azərbaycanda geniş yayılmaqdadır. Aran, Cənub, Şimal regionlarında və Bakı kəndlərində qızların təhsildən yayınması problemi daha qabarıqdır [8]. Belə hallar ilk olaraq ailənin maddi vəziyyətinin aşağı olması ilə əlaqədardır. Göstərilmişdir ki, şəhər və kənd ailələrinin maddi sıxıntısı müvafiq olaraq 36% və 39%-dir [25]. Ona görə də, uşaqlar ailənin hansısa sosial-iqtisadi problemini həll etmək üçün məktəbdən uzaqlaşdırılır [17, 18].

Əhali arasında maarifləndirmə işlərinin aparılmasına baxmayaraq, məktəbyaşlı uşaqların təhsildən uzaqlaşdırmaqla, oğlanları əmək fəaliyyətinə, qızları isə erkən nikaha girməyə məcbur etdirilmə halları hələ də mövcuddur. Aşağıdakı cədvəldə erkən yaşda nikaha girən (15-17 yaş) uşaqların sayı, son illərin nəticələri verilmişdir.

**Cədvəl 1:** Erkən yaşda nikaha girənlərin sayı

| İllər | Erkən yaşda nikaha girənlər (15-17 yaş) | |
|---|---|---|
| | Qızlar (sayı /nəfər) | Oğlanlar (sayı/nəfər) |
| 2020-ci il | 165 | - |
| 2021-ci il | 137 | 1 |
| 2022-ci il | 270 | - |

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailə məsələləri şöbəsinin müdir müavini Kamilə Əliyeva açıqlamasında bildirib ki, 2023-cü ildə komitə 25 erkən nikah faktının qarşısını alıb. Erkən nikahlar ailə zorakılığının ən ağır formalarından biridir. Azərbaycan qadın və uşaq hüquqları ilə bağlı əksər konvensiyalara qoşulub və qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılıb. Ona görə də, erkən nikah bu konvensiyaların tələblərinə ziddir [14].

Erkən nikah Azərbaycanın bir sıra regionlarının acı reallığıdır. Gəncədə və ətraf rayonlarda sorğular zamanı aydın olub ki, qızlar əsasən 8-9-cu siniflərdə təhsildən uzaqlaşdırılaraq, əsasən valideynlərin təhriki ilə erkən nikaha cəlb edilirlər [15]. Belə problemlərə Lənkəran şəhərinin özündə, demək olar ki, nadir halda rast gəlmək olar. Amma kəndlərdə vəziyyət acınacaqlıdır. Hətta qızları bəzən valideynləri ümumiyyətlə məktəbə getməyə qoymur. Masallı rayonunda vəziyyəti daha təhlükəli hesab edən ekspertlər bildirirlər ki, həmin rayonda qızlar ən yaxşı halda 5-ci və ya 6-cı sinfə qədər dərsə gedə bilir.

UNİCEF-in Azərbaycanda həddi-buluğa çatmayanlar arasında nikahların sayının artmasından narahatlıq ifadə edən hesabatında bildirilir ki, Azərbaycanda hər səkkiz nəfərdən birinin on səkkiz yaşına çatmamış evləndiyini və ya ərə getdiyini göstərir. UNİCEF son dövrlərdə qızları tez ərə vermək adətinin dirçəlməsinin səbəbini ailələrin ekonomik güzəranı ilə bağlılığında görür.

Dövlət Statistika Komitəsinin 1990-2022-ci illər üçün məlumatına əsasən, Azərbaycanda ümumi təhsil müəssisələrində 1-ci sinif şagirdlərinin və bu təhsil müəssisələrini bitirən şagirdlərin sayı:

**Cədvəl 2:** Ümumi təhsil müəssisələrində 1-ci sinif şagirdlərinin və bu təhsil müəssisələrini bitirən şagirdlərin sayı (nəfər)

| Dövlət ümumi təhsil müəssilərində | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 022 |
| Şagirdlərin sayı (cəmi, nəfər) | 154055 | 172889 | 165756 | 123935 | 119851 | 155807 | 157916 | 49837 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Bitirən şagirdlərin sayı (cəmi, nəfər) | 96422 | 78327 | 105033 | 123688 | 98112 | 88187 | 78638 | 9006 |

Hacı Zeynalabdin Tağıyevin dediyi kimi “Bir kişinin təhsil alması, yalnız savadlı bir insanın olması deməkdir. Amma bir qadının təhsil alması gələcəkdə həm savadlı qadın, həm də dünyagörüşlü bir ana-ailə deməkdir”. Son zamanlar genetik tədqiqatlarda, uşaqlara zəka geninin atadan deyil, məhz anadan keçdiyi aşkar edilib.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə Abbaszadə də bəzi ucqar rayonlarda qızların təhsil hüququndan məhrum edildiyini deyir: “Azərbaycanın elə bölgələri var ki, orada abituriyentlərin gender göstəriciləri kəskin fərqlənir. Xüsusən cənub rayonlarında bu fərq özünü daha qabarıq göstərir. Cənub rayonlarında ali məktəblərə sənəd verən abituriyentlərin cəmi 10 faizini qızlar təşkil edir. Bu o deməkdir ki, bizim qızlar erkən yaşlarından təhsil hüququndan məhrum edilir. Yardımlı rayonunda ötən il 479 abituriyent sənəd verib, onların yalnız 45-i qız olub. Lerikdə isə 469 abituriyentdən 81-i qızlardı”. Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bildirib - “Hələ də ölkədə təhsildən yayınan uşaqlar, o cümlədən qızlar var. Onlar bir çox hallarda erkən nikaha məcbur olunurlar” [13].

Sonda qeyd etmək lazımdır ki, uşaqların təhsildən uzaqlaşma səbəbi orta məktəblərdə verilən təhsilin ali məktəbə qəbul üçün kifayət etməməsi və ali məktəblərdə təhsilin 70%-nin ödənişli olmasıdır [17]. Qızların təhsildən yayınması millətin intellektinə zərbə hesab olunmalıdır. Çünki belə ailələrin övladları təhsilə maraqlı olmur, analar uşaqlarına yardım edə bilmir və nəticədə uşaqlar təhsildən geri qalır.

**Nəticə**

Qız uşaqlarına təhsil verilməsi ölkənin və dünyanın inkişaf yolunda böyük əhəmiyyətini kəsb edir. Elm sahibi olub cahillikdən xilas olmaqla yanaşı, bazarlıq edərkən aldadılma kimi hallara düşməmək də onlar tərəfindən çox vacib qazanc hesab olunur. Ana dilində oxuyub anlamağı bacarmaq, özünü ifadə etmək qabiliyyətini inkişaf etdirmək təhsildə nəticə olaraq qiymətləndirilə bilər. Bununla yanaşı öz ayaqları üzərində dura bilmək, başqalarına möhtac olmadan yaşaya bilmək və insan olmağın dəyərini hiss etmək digərləri ilə müqayisə olunmayacaq dərəcədə vacibdir [11].

“Uşaq hüquqları haqqında” qanunun 22-ci maddəsində uşaqların icbari ümumi orta təhsildən yayındırılmasının qadağan olunduğu qeyd edilib. Lakin bütün bunlara baxmayaraq, müasir dövrdə uşaq böyütmək, ona hərtərəfli təhsil vermək əsas problemə çevrilmişdir. Təhsildən uzaqlaşma yüzlərlə, minlərlə gəncin gələcəyini məhv etmək deməkdir. Ölkəmizdə erkən yaşlarda, əsasən də qız uşaqlarının valideyinin təsiri altında təhsildən uzaqlaşdırılması hallarına rast gəlinir. Son illərdə qızların təhsildən uzaqlaşdırılaraq erkən nikaha cəlb olunması ilə bağlı maritorinqin nəticələri göstərir ki, ailələlərin savadsızlığı və maarifləndirmənin az olması bu faktoru artırır.

Ulu öndərmiz Heydər Əliyev demişdir: “Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaq”. Azərbaycan təhsil sahəsində ciddi nailiyyətlər əldə etməkdədir. Bu nailiyyətlər təhsil sahəsində həyata keçirilən çoxsaylı layihələr, dövlətin bu sahəyə yönəltdiyi diqqətin nəticəsində mümkün olub. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi təhsil siyasəti ölkə başçısı İlham Əliyev tərəifindən uğurla davam etdirilir. Dövlətin bu sahəyə ciddi yanaşmasının nəticəsidir ki, hər il təhsil sahəsinə ayrılan vəsaitlərin həcmi artmaqda davam edir. “XXI Əsr Təhsil Mərkəzi” İctimai Birliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə “Təhsildən yayınma, erkən nikah – yarımçıq qalan arzular” layihəsini həyata keçirir.

5 yaşlı uşaqların təhsilə cəlbolunma səviyyəsi 2013-cü ildəki 24 faizdən cari tədris ilində 87 faizə çatdırılıb. 2023-cü ildə 40 təhsil müəssisəsində (3 peşə, 3 məktəbdənkənar, 1 internattipli, 33 ümumi təhsil müəssisəsi) tikinti-quraşdırma işləri aparılıb. Bunlardan 23 təhsil müəssisəsi istismara verilib, 8 təhsil müəssisəsində son tamamlanma işləri görülüb. Daha 38 təhsil müəssisəsinin (25 tikinti, 13 əsaslı təmir və bərpa-gücləndirmə) təmir-tikinti işlərinə hazırlıq həyata keçirilir. Layihələndirilməsi aparılan 32 təhsil müəssisəsinin növbəti ildə təmir-tikintisinə başlanılması planlaşdırılır. Heydər Əliyev Fondu tərəfindən 20 təhsil müəssisəsinin təmir-tikintisi tamamilə başa çatıb. Eyni zamanda dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin "Təhsil" bölməsi üzrə Elm və Təhsil Nazirliyinə ayrılmış müvafiq xərclər hesabına 61 təhsil müəssisəsi (59 ümumi, 2 peşə) əsaslı təmir olunub. İşğaldan azad edilmiş ərazilərdə 550 şagird və 84 müəllim daxil olmaqla 7 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb [12]. 2023-2024-cü tədris ili üzrə peşə təhsili müəssisələrinə 113 min 925 nəfər müraciət edib. Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib ki, onlardan 20 min 563 nəfər tələbə adını qazanıb. Tələbələrin 13 min 632 nəfəri kişi, 6 min 931 nəfəri qadındır. Onlardan 17 min 22 nəfər dövlət sifarişli, 3 min 541 nəfər ödənişli əsaslarla təhsil alır [16].

Dünyada 15-19 yaş arasında olan hər 4 qızdan 1-i işsizdir və təhsil ala bilmir. Bu gün 130 milyon qız məktəbə getmir. Pandemiyadan əvvəl gender bərabərsizliyi geniş yayılmış ədalətsizlik olduğu halda, pandemiyanın mənfi təsirləri ilə bu ədalətsizlik hədsiz dərəcədə artmışdır. Pandemiyadan sonra daha 11 milyon qızın məktəbə qayıtmayacağı təxmin edilir. Həyata bərabər imkanlarla başlamasalar belə, gələcəkdə onlara bərabər imkanlar təmin edilməlidir. Bu, bizə dünyada hər kəsin, qızların, qadınların və hətta kişilərin həyatını yaxşılaşdırmaq imkanı verə bilər. Bu gün dünyamızda 600 milyon yeniyetmə qız yaşayır və onlar tarixdə indiyə qədər görülməmiş ən böyük qadın liderlər nəslini təşkil edəcəklər. Amma bir şərtlə: Əgər biz onlara lazımi imkanlar yaratsaq və lazımi bacarıqlarla təchiz etsək [19].

11 oktyabr Dünya Beynəlxalq Qızlar Günü təsis edilmişdir. Qızların öz potensiallarını reallaşdırmağa mane olan əngəllərə diqqət çəkmək, qızların səlahiyyətlərinin artırılmasına sərmayə qoymaq, onların sağlamlığı, hüquq və rifahını prioritetləşdirmək cəmiyyətlərin tərəqqisi üçün ən vacib məsələdir.

## ƏDƏBİYYAT


[1] Azərbaycan ölkə üzrə gender qiymətləndirilməsi Asiya İnkişaf Bankı - Mərkəzi və Qərbi Asiya Regional Departamenti, Regional və Davamlı İnkişaf Departamenti Dekabr 2005, 148s.

[2] Baxşəliyev Fərid Rafiq oğlu. Heydər Əliyev və Azərbaycanın təhsil sistemində aparılan islahatların əsas istiqamətləri, (monoqrafiya), ADPU-nun nəşriyyatı, 2009, 168 s.

[3] BMT-nin İnkişaf Proqramı, Azərbaycanda İnsan İnkişafına dair Məruzə, Bakı, 2002.

[4] Bruns, B., Mignate, A., & Rakotomalala, R. (2003). 2015 Yılına Kadar Herkesin İlkokul Eğitimi Görmesi: Her Çocuk İçin Bir Şans, Dünya Bankası, Washington D.C.www.unicef.org/turkey/dcd04/-8.html. Erişim tarihi: 22Aralık 2009.

[5] DİE. (1997). Çocuk İşgücü Araştırması, Ankara: Başbakanlık.

[6] Dövlət Statistika Komitəsi (2002). Məktəb təhsilində islahatlar barədə əhali arasında keçirilən rəy sorğusunun nəticələri üzrə Məruzə.

[7] Dünya Bankı (2003). Azərbaycan Respublikasında yoxsulluğun qiymətləndirilməsi. II cild: Əsas məruzə.

[8] http://www.anl.az/down/meqale/525/2010/sentyabr/134298.html

[9] https://a-r.az/az/article/11034

[10] https://dergipark.org.tr/en/download/article-file/1285118

[11] https://dergipark.org.tr/tr/download/article-file/146304

[12] https://edu.gov.az/az/hesabatlar/20933
[13] https://qafqazinfo.az/news/detail/tehsilden-yayinan-qizlar-erken-nikaha-mecbur-olunurlar-yenilenib-416358
[14] https://modern.az/news/457296/
[15] https://news.milli.az/society/57280.html
[16] https://tehsil-press.az/index.php?newsid=82868
[17] https://www.movqe.az/news/sosial/32331.html
[18] https://www.movqe.az/news/sosial/32332.html
[19] https://www.unicef.org/turkiye/bas%C4%B1n-b%C3%BCltenleri/8-d%C3%BCnya-k%C4%B1z-%C3%A7ocuklar%C4%B1-konferans%C4%B1ndan-d%C3%BCnyaya-%C3%A7a%C4%9Fr%C4%B1-gen%C3%A7-k%C4%B1zlar%C4%B1n-ve-kad%C4%B1nlar%C4%B1n
[20] https://www.unicef.org/turkiye/bas%C4%B1n-b%C3%BCltenleri/unicef-k%C4%B1z-%C3%A7ocuklar-g%C3%BCndelik-ev-i%C5%9Fleri-i%C3%A7in-her-g%C3%BCn-erkek-%C3%A7ocuklardan-160-milyon
[21] https://www.unicef.org/turkiye/bas%C4%B1n-b%C3%BCltenleri/unicef-ve-uluslararas%C4%B1-telekom%C3%BCnikasyon-birli%C4%9Fi-itu-taraf%C4%B1ndan-haz%C4%B1rlanan-yeni
[22] https://yandex.ru/tutor/subject/problem/?problem_id=T18725
[23] MEB.(1992). 2000'li Yıllar Öncesinde Türkiye'de Kadın Eğitimi, Ankara: MEB Yayınları.
[24] Sabina Əzim qızı Əzimova. Erkən nikah probleminin yaranmasinda və davam etməsində gender bərabərsizliyinin rolu. ELMİ İŞ (beynəlxalq elmi jurnal). Bakı. 2020, №10/59, səh.93-97; DOI: 10.36719/2663-4619/59/93-97.
[25] Sosial Tədqiqatlar Mərkəzi, Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil, Bakı – 2021, 64səh.
[26] TÜSİAD ve KAGİDER, "Cinsiyet Eşitsizliği Raporu; Sorunlar, Öncelikler ve Çözüm önerileri", http://www.porttakal.com/haber. Erişim tarihi: 17. Mart. 2008.
[27] UNICEF (BMT-nin Uşaq Fondu). 2002. Reaching the last few: Azərbaycanda qızların təhsili. Bakı.
[28] Yalın A., Levent, B., Eroğlu, Ç. Y., Cerrah, N., ve Sundur, Y.T. (2004). Haydi Kızlar Okula, Ankara, MEB Yayınları.
[29] Педагогические феномены прошлого и настоящего: монография / Г. Б. Корнетов, Е. Н. Астафьева, А. И. Салов; под ред. Г. Б. Корнетова. – М.: АСОУ, 2018. – 284 с. – (Сер. «Историко-педагогическое знание». Вып. 113.